# Narkomaniya "əsrin bəlası"dır



**Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı ölkəmizin qoşulduğu Beynəlxalq konvensiyalara, son illərdə qəbul edilən qanunlara, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Dövlət proqramlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğun olaraq həyata keçirilən işlər nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə gücləndirilmiş, "Əsrin bəlası" hesab edilən problemin həllinə kompleks yanaşılması üçün bütün səylərin koordinasiya olunması yönündə tədbirlər həyata keçirilmişdir.**

Respublika üzrə 31.12.2015-ci il tarixinə qeydiyyatda olan narkomanların ümumi sayı 28555 (o cümlədən opioidlərin qəbulu nəticəsində - 20036 nəfər, kannabioidlərin qəbulu nəticəsində - 8519 nəfər): dispanser qeydiyyatında olanlar - 23153 nəfər, profilaktik - 5402 nəfər, anonim müalicə alan - 583 nəfər, toksikoman 158 nəfər. Narkotik istifadəçilərinin 592 nəfəri qadındır.

2015-ci il ərzində 2017 narkoman qeydiyyata götürülmüşdür (o cümlədən, opioidlərin qəbulu nəticəsində - 1224 nəfər, kannabioidlərin qəbulu nəticəsində - 793 nəfər): dispanser qeydiyyatında olanlar - 1432 nəfər, profilaktik - 585 nəfər.

26.05.2015-ci il və 15.12.2015-ci il tarixlərində qanunsuz dövriyyədən müsadirə edilmiş narkotik vasitələrin məhv olunmasında Respublika Narkoloji Mərkəzin nümayəndəsi iştirak etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 sentyabr 2014-cü il tarixli, 276 nömrəli qərarı ilə "Narkomanlığa düçar olmuş şəxslərin müalicəsi, reabilitasiyası və resosializasiyası üzrə Proqram" təsdiq edilmişdir. "Narkomanlığa düçar olmuş şəxslərin müalicəsi, reabilitasiyası və resosializasiyası üzrə Proqram"ın icrasına dair Azərbaycan Respublikası səhiyyə nazirinin 07.11.2014-cü il tarixli 116 nömrəli əmri ilə "Tədbirlər planı" təsdiq olunmuşdur. "Tədbirlər planı"nın aidiyyəti bəndləri üzrə müvafiq işlər görülür.

2015-ci ildə 2833 nəfər könüllü müalicə almaq üçün Mərkəzə müraciət etmişdir.

2015-ci ildə Ədliyyə Nazirliyi tərəfindən Respublika Narkoloji Mərkəzinə göndərilmiş şəxslərin məhkəmə-narkoloji tibbi yoxlaması təmin olunmuşdur. Respublika üzrə 2015-ci il ərzində ekspertizadan cəmi 3111 nəfər keçib. Onlardan 1577 nəfərə məcburi müalicə təyin olunub.

Mülki işlə bağlı narkoloji tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin ümumi sayı 13 nəfərdir, onlardan 1 nəfərinin müalicəsi hal-hazırda davam edir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Narkoloji Mərkəzində insan immunçatışmazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsinin yaradılması barədə" 22/I-ŞH saylı 16.07.2011-ci il tarixli əmrinə əsasən 14.07.2011-ci il tarixdən Respublika Narkoloji Mərkəzində insanın immunçatışmazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsi yaradılmışdır. Bundan əlavə, Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir şəhər narkoloji dispanserləri və bir sıra Mərkəzi rayon xəstəxanalarının narkoloji kabinetlərinin nəzdində ümumilikdə, 48 könüllü məsləhət və müayinə məntəqəsi təşkil edilmişdir. 2015-ci il ərzində məntəqələrdən 44278 nəfər şəxs müayinədən keçmişdir.

2015-ci ildə Respublika Narkoloji Mərkəzində 30655 nəfər sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinədən keçmişdir. 2015-ci il ərzində Azərbaycan Respublikası "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin, "CargoAz" MMC-166 yük daşınması xidmətinin işçiləri, "SOCAR Petroleum" QSC-nin yanacaq daşıyan avtosistern sürücüləri, "Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin mühafizəçiləri və sürücüləri də Respublika Narkoloji Mərkəzində sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinədən keçmişdir. "Saipem Contracting Netherlands B.V" və BP şirkətlərinin Azərbaycan Respublikasındakı filiallarının həkim heyətinə Respublika Narkoloji Mərkəzinin mütəxəssisləri tərəfindən "Sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinə" adlı təlim kursları keçirilmişdir.

Azərbaycan Respublikası səhiyyə nazirinin 29 saylı 22.04.2015-ci il tarixli əmrinə əsasən, Respublika ərazisində fəaliyyət göstərən narkoloji tibb müəssisələrinə və mərkəzi rayon xəstəxanalarının narkoloji kabinetlərinə təşkilati-metodiki rəhbərlik Respublika Narkoloji Mərkəzinə tapşırılmışdır. Bununla əlaqədar respublika ərazisində fəaliyyət göstərən narkoloji tibb müəssisələrinin və mərkəzi rayon xəstəxanalarının narkoloqlarının işinin səmərəliliyi artmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 yanvar 2006-cı il tarixli qərarı ilə ölkəmizdə "Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin Şərtləri və Qaydaları" təsdiq edilib. Bu proqramlar inyeksion yolla narkotik maddələr istifadə edənlər arasında İİV/QİÇS-in yayılmasının qarşısını almağa yönəlib. Son üç il ərzində Metadonla əvəzedici müalicə proqramı üzrə fəaliyyət göstərən iki məntəqədə 424 xəstə müalicə almışdır.

Səhiyyə Nazirliyi tərəfindən Respublika Narkoloji Mərkəzi üçün 250 çarpayılıq müasir dünya standartlarına cavab verən yeni bina inşa olunur. Mərkəzdə reabilitasiya, intensiv terapiya, psixoterapiya, ixtisaslaşdırılmış tibb şöbələrinin, laboratoriyaların (kliniki, biokimyəvi və toksikoloji) fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur.

Respublika Narkoloji Mərkəzinin mütəxəssisləri Ucar rayon Heydər Əliyev Mərkəzində 29.11.2015-ci il-01.12.2015-ci il tarixlərində "Narkomanlığın cəmiyyətə, insanların sağlamlığına zərəri və doğurduğu təhdidlər" mövzusunda keçirilmiş elmi-praktiki konfransda, Ucar Rayon İcra Hakimiyyəti və polis şöbəsinin təşkilatçılığı ilə 1-3 dekabr 2015-ci il tarixdə keçirilən "Gənclər Narkotik əleyhinə" mövzusunda müşavirədə, 17.12.2015-ci il tarixində keçirilmiş "KOİCA"-Məzunlar Assosiasiyasının illik seminarında nümayəndə olaraq iştirak etmişdilər.

2015-ci ildə Respublika Narkoloji Mərkəzinin mütəxəssisləri 11.10.2015-24.10.2015-ci il tarixlərində Cənubi Koreyanın Seul şəhərində "Mərkəzi Asiyada narkotik vəziyyət üzrə məsul olan dövlət rəsmiləri üçün potensialın gücləndirilməsi" mövzusunda keçirilmiş təlim kursunda, 19.10.2015-23.10.2015-ci il tarixlərində Qazaxıstan Respublikasının Almatı şəhərində "Mərkəzi və Qərbi Asiyada sirkə anhidridi və prekursorların dövriyyəsi ilə bağlı məlumatların mübadiləsi" layihəsi çərçivəsində keçirilmiş seminarda nümayəndə olaraq iştirak etmişdilər.

Respublika Narkoloji Mərkəzinin mütəxəssisləri tərəfindən təhsil, gənclər və idman təşkilatlarının əməkdaşları və valideynlər üçün narkomaniyanın ilkin profilaktikası və antinarkotik təbliğatın həyata keçirilməsi məqsədilə bu problemin müxtəlif aspektlərini işıqlandıran "Narkotiklər haqqında həqiqəti bilin" adlı jurnal, "Alkoqolizm" və "Psixoaktiv maddələrdən asılılıq" adlı ümumilikdə 175000 ədəd buklet və müxtəlif əyani vəsait (broşür, yaddaş vərəqi, cib təqvimləri və s.) çap edilmiş və yayılmışdır.

**Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzi**